**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**

**FƏLSƏFƏ VƏ HÜQUQ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**BALACAYEV VÜQAR SƏMƏD OĞLU**

# CİNAYƏT-PROSESSUAL MƏSULİYYƏT

**Ixtisas:** 5612.01 – Cinayət prosesi; kriminalistika və məhkəmə ekspertizası; əməliyyat-axtarış fəaliyyəti

hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün

təqdim olunmuş dissertasiyasının

**AVTOREFERATI**

**Bakı – 2016**

Dissertasiya işi AMEA Fəlsəfə və Hüquq İnstitutunun "Cinayət hüququ və cinayət prosesi" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **M.Ə.Cəfərquliyev**

hüquq üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **M.S.Qəfərov**

hüquq üzrə elmlər doktoru

**H.Q.Eyvazov**

hüquq üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı təşkilat:** **Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertiza Mərkəzi**

Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın müdafiəsi "22____"__09__________2016-cı il tarixdə saat "_____"da Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutu nəzdindəki FD. 01.103 saylı Dissertasiya Şurasının iclasında keçirələcəkdir.

Ünvan: AZ1143, Bakı şəhəri, Hüseyin Cavid pr.115, Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutu, IX mərtəbə, konfrans zalı.

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" ______________2016-cı il tarixdə göndərilmişdir.

**FD. 01.103 Dissertasiya Şurasının**

**elmi katibi, hüquq üzrə fəlsəfə doktoru,**

**dosent** **X.Ə.Bayramzadə**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat mövzusunun aktuallığı.** Qanunçuluğun möhkəmləndirilməsi hüququn prinsiplərindən biri kimi ali və yerli dövlət hakimiyyəti orqanları və qurumlarının, alimlərin və ictimaiyyətin həmişə diqqət mərkəzində olmuşdur. Cinayət işlərinin istintaqı zamanı qanunçuluğun təmin edilməsi məhkəməyədək icraatda iştirak edən vəzifəli şəxslərin əsas funksiyasını təşkil edir ki, bu da öz növbəsində mühüm prosessual təminatlardan biridir. Təəssüf ki, hələ də həmin şəxslər tərəfindən cinayət-prosessual qanunvericiliyin pozulması faktlarına rast gəlmək mümkündür: cinayətlər haqqında məlumatlar üzrə yoxlama materiallarının saxtalaşdırılması, xidməti vəzifələrə səhlənkar yanaşma, rüşvətxorluq, cinayət işlərinin başlanılmasından əsassız olaraq imtina etmələr, cinayətin törədilməsində şübhələr əsasında qanunsuz saxlamalar və s. Statistik məlumatlar göstərir ki, ölkəmizdə vəzifə cinayətləri və ədalət mühakiməsinə qarşı cinayətlərin törədilməsinə görə məsuliyyətə cəlb edilən hüquq-mühafizə orqanları əməkdaşlarının sayı əhəmiyyətli dərəcədə qalmaqda davam edir (2008-ci ildə 26 prokurorluq əməkdaşı inzibati məsuliyyətə cəlb edilib, 3-ü irad, 5-i töhmət, 14-ü şiddətli töhmət alıb, 2-si tutduğu vəzifədən azad edilib, 2-si isə prokurorluq orqanlarından xaric edilib; 2009-cu ildə prokurorluğun 34 əməkdaşı inzibati məsuliyyətə cəlb edilib, 8- irad, 10-u töhmət, 10-u şiddətli töhmət alıb, 1-i tutduğu vəzifədən azad edilib, 5 nəfəri isə vəzifə cinayətləri və ədalət mühakiməsinə qarşı cinayətlərə görə prokurorluq orqanlarından xaric edilib; 2011-ci ildə 320 əməkdaş, 2012-ci ildə 478 əməkdaş, 2013-cü ildə isə 142 əməkdaş inzibati məsuliyyətə cəlb edilib) (Bax 5,6,7 saylı əlavələr).

Yalnız cinayət-prosessual qanunvericiliyin pozuntularına görə apellyasiya məhkəmələri tərəfindən birinci instansiya məhkəməsinin 2009-cu ildə 38, 2010-cu ildə 30, 2011-ci ildə 89, 2012-ci ildə 97, 2013-cü ildə 67 qərarı ləğv edilmiş, həmçinin birinci instansiya məhkəmələri tərəfindən 2009-cu ildə prokurorlar, müstəntiqlər və təhqiqatçılar tərəfindən qanunsuz və əsassız qəbul edilmiş 49,

2010-cu ildə 106, 2011-ci ildə 106, 2012-ci ildə 121, 2013-cü ildə 90 qərar, apellyasiya instansiyaları tərəfindən isə 2009-cu ildə 31, 2010-cu ildə 30, 2011-ci ildə 38, 2012-ci ildə 28, 2013-cü ildə 32 qərar ləğv edilmişdir.

Proses iştirakçılarının hakimiyyət səlahiyyətli subyektlərin (təhqiqatçı, müstəntiq, prokuror) hərəkətlərindən (hərəkətsizliyindən) verilmiş şikayətləri üzrə qəbul edilmiş qərarların sayı 2009-2013-cü illər ərzində aşağıdakı qaydada artmışdır: 2009-cu ildə - 184, 2010-cu ildə - 377, 2011-ci ildə - 393, 2012-ci ildə - 375, 2013-cü ildə - 394.

Azərbaycan Respublikası Ali Məhkəməsinin 25.10.2010-cu ildə keçirilmiş Plenumunun qərarı ilə müəyyən edilmişdir ki, cinayət işləri üzrə məhkəmə kollegiyasında cinayət işlərinə yenidən baxılması 7,7% azalmışdır.

Əgər 2008-ci ildə Ali Məhkəmədə cəmi 4 388 işə baxılmışdısa, 2009-cu ildə bu say 4 862 olmuşdur ki, bu da 2008-ci ildə olduğundan 474 (10,8%) iş çoxdur. 2008-ci ildə Ali Məhkəmənin Plenumunun 6, 2009-cu ildə isə 4 iclası keçirilmişdir.

2009-cu ildə Ali Məhkəmədə vətəndaşlardan daxil olan ərizə, şikayət və digər müraciətlərin baxılmasına, onlara əsaslandırılmış və düzgün cavabların verilməsinə diqqət artmışdır. Son illərdə Ali Məhkəməyə müraciətlərin sayında azalma qeyd edilir. Əgər 2008-ci ildə Ali Məhkəməyə 22 320 müraciət daxil olmuşdusa, 2009-cu ildə 21 162 müraciət olmuşdur ki, bu da əvvəlki ildəki saydan 1 158 (5,1%) müraciət azdır. Bundan əlavə, əlavə kassasiya şikayəti ilə əlaqədar olan şikayətlərin sayı da 4,9% azalmışdır.

Plenumda qeyd edilmişdir ki, bütün bunlar birinci instansiya məhkəmələrinin qərarlarında əvvəlki illərlə müqayisədə qanunvericiliyin daha düzgün tətbiq edilməsi nəticəsində mümkün olmuşdur.

Lakin eyni zamanda qeyd etmək lazımdır ki, işlərin belə vəziyyəti də cəmiyyətdə ciddi narahatlıq doğurur, vətəndaşların hüquq-mühafizə orqanlarına

qarşı neqativ münasibətinin formalaşmasına kömək edir və onlara qarşı etimadın möhkəmləndirilməsi istiqamətində görülən tədbirlərin səmərəliliyini aşağı salır.

Qeyd etmək lazımdır ki, indiyə qədər cinayət-prosessual qanunun pozulmasına görə məhkəməyədək icraatda qanunçuluğu təmin edən subyektlərin istər cinayət, istərsə də intizam məsuliyyətinə cəlb edilməsi üzrə vahid təcrübə mövcud deyil.

Cinayət mühakimə icraatında cinayət-prosessual məsuliyyətin realizə edilməsi problemləri bu və ya digər dərəcədə M.Ə.Cəfərquliyev, C.H.Mövsümov, F.M.Abbasova, M.S.Qəfərov, S.S.Alekseyev, B.T.Bazılev, A.S.Bondarev, V.Q.Dayev, V.N.Kudryavtsev, D.A.Pipinskin, İ.L.Petruxin, M.S.Stroqoviç, P.S.Elkind və digər hüquqşünas alimlərin işlərində nəzərdən keçirilmişdir, lakin bu adıçəkilən müəlliflər yalnız cinayət prosesinin adı çəkilən institutunun sisteminin ayrı-ayrı elementlərini öyrənməklə kifayətlənmiş, prosessual elmin və təcrübənin özünün dinamik inkişafı şəraitində yaranan bütün sualların dairəsinin tədqiq edilməsi imkanlarını nəzərdən keçirməmişlər. Bundan əlavə, razılaşmaq lazımdır ki, həmin tədqiqatların bir çoxu fərqli sosial tarixi şəraitdə aparılmışdır ki, bu da müasir reallıqların daha dərin elmi təhlilini tələb edir.

Həmçinin qeyd etmək lazımdır ki, 2000-ci ildə Azərbaycan Respublikasının yeni Cinayət-Prosessual Məcəlləsi təsdiq edilmiş və qüvvəyə minmişdir ki, burada cinayət işlərinin istintaqı və baxışı zamanı cinayət-prosessual məsuliyyətin tətbiq edilməsi sistemi tamamilə hüquqi dövlətin yeni mövqeləri əsasında qurulmuşdur, lakin bu günə qədər hələ ki, həmin sistemin struktur və elementlərinin təməl tədqiqatları aparılmamışdır.

Buradan belə aydın olur ki, yuxarıda göstərilən hallar nəzərdən keçirdiyimiz sahənin bu günə qədər müstəqil tədqiq edilmədiyini, bir sıra yeni problemlərinin geniş kompleksinin mövcudluğu və yaranması haqqında qənaəti təsdiq edir. Onların miqyası və əhəmiyyətliliyi hazırki dissertasiya tədqiqatının mövzu seçimini şərtləndirmişdir.

**Problemin işlənilmə dərəcəsi.** Dissertasiya tədqiqatına uyğun olaraq cinayət-prosessual məsuliyyət problemləri Q.N.Vetrova (Cinayət prosessual məsuliyyət. h.e.n. diss., Moskva, 1981-ci il) , N.N.Safin (Sovet qanunvericiliyinə görə cinayət-prosessual məsuliyyət. H.e.n. diss., Kazan, 1985-ci il), Z.F.Kovriqa (Cinayət-prosessual məsuliyyətin hüquqi və nəzəri əsasları. H.e.n. diss., Kiyev, 1987-ci il), Q.J.Süleymanova (Müstəntiqin cinayət-prosessual məsuliyyəti. H.e.n. diss., Moskva, 1988-ci il), V.S.Veprev (Cinayət-prosessual məsuliyyətin əsasları. H.e.n. diss., Çelyabinsk, 2006-cı il), Y.A.Kuzenkova (Cinayət-prosessual məsuliyyət tədbirləri sistemində pul tutulmaları. H.e.n diss., Samara, 2009-cu il) tərəfindən 1981-2009-cu illərdə müxtəlif aspektlərdə tədqiq edilmişdir.

**Dissertasiya tədqiqatının məqsəd və vəzifələri.** Dissertasiya tədqiqatının məqsədi cinayət-prosessual məsuliyyətin nəzəri-tətbiqi konsepsiyasının formalaşdırılmasından, o cümlədən, hüquqi məsuliyyətin strukturunda cinayət-prosessual məsuliyyətin yerinin və onun cinayət mühakimə icraatında əhəmiyyətinin müəyyən edilməsindən, onun sisteminin əsasları və digər elementlərinin öyrənilməsindən, milli qanunvericiliyin təkmilləşdirilməsi üzrə tövsiyyələrin hazırlanmasından ibarətdir.

Həmin məqsədlər aşağıda göstərilən vəzifələrin formalaşdırılması və həllində öz əksini tapır:

- Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə müvafiq olaraq və müasir elmi baxışların nəzərə alınması ilə cinayət-prosessual məsuliyyət anlayışın xarakterik xüsusiyyətlərinin aşkar edilməsi və onun ifadə edilməsi;
- cinayət-prosessual məsuliyyətin mahiyyət və əhəmiyyətinin müəyyən edilməsi;
- bu hüquqi məsuliyyət növünün təsnifatının aparılması;
- cinayət-prosessual məsuliyyətin əsasları anlayışının ifadə edilməsi;
- bu məsuliyyət növünə dair əsaslarının struktur tədqiqi;
- nəzərdən keçirilən məsuliyyətin əsasları növlərinin aşkar edilməsi;

- cinayət-prosessual məsuliyyətin realizə edilməsi mexanizminin xüsusiyyətlərinin aşkar edilməsi;
- cinayət məhkəmə icraatının hakimiyyət subyektlərinə münasibətdə göstərilən məsuliyyətin realizə edilməsi problemlərinin aşkarlanması, təhlili və həlli;
- cinayət məhkəmə icraatının digər iştirakçılarına münasibətdə həmin məsuliyyətin realizə edilməsi problemlərinin aşkarlanması, təhlili və həlli;
- cinayət-prosessual məsuliyyətin tətbiq edilməsi ilə əlaqədar hüquqi tənzimlənməsinin, eləcə də cinayət prosesi subyektlərinin fəaliyyətinin təkmilləşdirilməsi üzrə tövsiyyələrin hazırlanması.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya tədqiqatının obyekti cinayət-prosessual məsuliyyətin mövcudluğunu şərtləndirən ictimai münasibətlər, eləcə də onun realizə edilməsi prosesində yaranan hüquqi münasibətlərdir.

Tədqiqatın predmetini cinayət-prosessual məsuliyyəti reqlamentləşdirən cinayət-prosessual hüquq normaları, eləcə də onların tətbiq edilməsi təcrübəsi və həmin hüquqi təzahürə dair müasir elmi baxışlar təşkil edir.

**Tədqiqatın metodoloji və nəzəri bazası.** Elmi tədqiqatın metodoloji əsası kimi dialektik materializmin ümumi elmi metodologiyası sayılan ümumfəlsəfi metodu seçilmişdir. Hazırki tədqiqatın həyata keçirilməsi zamanı, həmçinin, müxtəlif xüsusi elmlərdə tətbiq edilən ümumelmi metodlardan, yəni təsvir, müşahidə, statistika, modelləşdirmə, düşüncə təcrübəsi, müqayisəli analitik təhlil və digər metodlardan istifadə olunmuşdur.

Dissertasiyanın yazılması zamanı müəllif geniş şəkildə azərbaycanlı və xarici ölkə alimlərinin – filosofların, elmşünasların, prosessualistlərin, sosioloqların, psixoloqların və digərlərinin fundamental nəzəri əsərlərindən istifadə etmiş, qanunları və qanun qüvvəli aktları, məhkəmə orqanlarının qərar və qətnamələrini təhlil etmişdir ki, bu da dissertasiya tədqiqatının ilkin elmi mövqelərini düzgün müəyyən etməyə, materialların toplanması və öyrənilməsi üçün lazımi metodları seçməyə, əldə edilmiş nəticələri qiymətləndirməyə imkan yaratmışdır. Tədqiqatın aparılması gedişində hüquq nəzəriyyəsi, kriminalistika, cinayət hüququ, cinayət

prosesi kimi müxtəlif elm sahələrindən olan alimlərin əsərlərindən istifadə edilmişdir.

Tədqiqatın əsasını cinayət-prosessual məsuliyyət problemlərini öyrənmiş cinayət prosesi və qarışıq elmi fənlər sahəsi alimlərinin: M.Ə.Cəfərquliyevin, C.H.Mövsumovun, F.M.Abbasovanın, M.S.Qəfərovun, S.S.Alekseyevin, B.T.Bazılevin, A.S.Bondarevin, S.N.Bratusyun, A.S.Bulatovun, V.S.Veprevin, Q.N.Vetrovanın, L.M.Volodinanın, Y.P.Qarmayevin, V.Q.Dayevin, O.A.Zeleninin, Z.Z.Zinatulinin, T.D.Zrajevskayanın, A.A.İvanovun, Z.F.Kovriqin, O.A.Kojevnikovun, F.M.Kudinin, V.N.Kudryavsevin, O.E.Leystin, D.A.Lipinskinin, N.S.Maleinin, Y.O.Motovilovkerin, İ.R.Naqimullinin, P.Y.Nedbaylonun, S.Q.Olkovun, İ.L.Petruxinin, İ.S.Samoşenkonun, A.İ.Stolmakovun, M.S.Stroqoviçin, Q.J.Süleymanovanın, N.İ.Tyurinanın, M.X.Farukşinin, N.A.Çeçinanın, A.P.Çirkovun, P.S.Elkindin əsərləri təşkil edir.

**Tədqiqatın normativ və empirik bazası**. Dissertasiyada Azərbaycan Respublikasının yeni Konstitusiyasında olan müddəalar, respublikada cinayət-prosessual məsuliyyətə aid olan məsələləri tənzimləyən əvvəlki və hazırda qüvvədə olan cinayət-prosessual qanunvericiliyi təhlil edilmişdir; bir sıra hallarda onun xarici ölkələrin cinayət-prosessual qanunvericiliyi ilə müqayisəli təhlili aparılmış, cinayət prosesi, məhkəmə təcrübəsi və digər qarışıq fənlər üzrə dissertasiyanın mövzusuna aid olan çoxlu sayda ədəbiyyat tədqiq edilmişdir.

Dissertasiyada müəllif tərəfindən Azərbaycan Respublikasının məhkəmə təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi yolu ilə toplanmış empirik materialdan istifadə edilmişdir. Bu zaman Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Bakı və Şirvan apellyasiya məhkəmələrinin 50-dən çox arxiv materialları, eləcə də cinayət işləri üzrə kassasiya məhkəməsinin və Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarları öyrənilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Müəllif tərəfindən Azərbaycan Respublikasının cinayət-prosessual elmi çərçivəsində nəzəriyyə səviyyəsində ilk dəfə olaraq cinayət-prosessual məsuliyyətin sistemli konsepsiyasının yaradılması və hüquqi məsuliyyət strukturunda onun mövcudluğunun əsaslandırılması istiqamətində

cəhdlər edilmiş, eləcə də həmin növ məsuliyyət elementlərinin hüquqi tənzimlənməsinin təkmilləşdirilməsi və onun mexanizminin praktiki cəhətdən realizə edilməsi üzrə bir sıra tövsiyələr işlənib hazırlanmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Cinayət-prosessual məsuliyyət hüquqi məsuliyyətin, cinayət-prosessual hüququn hüquqi tənzimlənməsi metodunun elementi kimi çıxış edən və cinayət mühakimə icraatı iştirakçılarının davranışına diferensiasiyalı təsirin onlar tərəfindən şüurlu şəkildə könüllü-məcburi olaraq riayət edilməsinin təmin olunması (hüquqa uyğun davranış), həmin göstərişlərə əməl edilməməsinin qarşısının alınması (hüquqazidd davranış) məqsədi ilə normativ təsbit edilmiş spesifik vasitə və üsullarının (həvəsləndirici, cəzalandırıcı və s.), eləcə də belə riayət etməmə hallarının neqativ nəticələrinin aradan qaldırılması üsullarının (bərpaedici tədbirlər) məcmusunu ifadə edən müstəqil bir növü kimi müəyyən edilməlidir.
2. Cinayət-prosessual məsuliyyətin əsası pozitiv və neqativ mövqelərdən, hüquqi və faktiki tərkiblərin konkretləşdirilməsi ilə səciyyə edilməlidir. Pozitiv məsuliyyətin hüquqi aspekti şəxsin müxtəlif öhdəliklərini təsbit edən, eləcə də ona müəyyən formada hərəkət etmək və ya müəyyən vəziyyətlərdə hərəkətsiz qalmaq göstərişlərini verən hüquq normalarından ibarətdir. Neqativ məsuliyyətin hüquqi aspekti hüquq pozuntularının tərkibləri, eləcə də hüquqi normalarda təsbit edilən tərkiblər ilə səciyyə edilir. Pozitiv məsuliyyətin faktiki aspekti üzərinə qoyulan öhdəlikləri və ya ona aid olan göstərişləri vicdanla yerinə yetirən şəxsin hüquqauyğun davranışından ibarətdir. Neqativ məsuliyyətin faktiki aspekti şəxsin cinayət-prosessual hüquq normaları ilə müəyyən edilən qaydaların pozulması ilə əlaqəli olan hüquqazidd davranışından ibarətdir.

Göstərilənləri nəzərə almaqla, cinayət-prosessual məsuliyyətin əsasını cinayət prosesi iştirakçısının cinayət-prosessual və hüququn digər sahələrinin normaları ilə tənzimlənən, həmin hüquq normalarının müddəalarına əməl edilməsindən asılı olaraq hüquqauyğun və ya hüquqazidd davranışı kimi müəyyənləşdirmək lazımdır.

3. Pozitiv cinayət-prosessual məsuliyyətin əsasının təhlili belə bir nəticəyə gəlməyə imkan verir ki, bu qismdə müxtəlif formalarda (sosial-fəal, vərdiş edilən, konformist və ya marginal) realizə edilən və cinayət prosesi iştirakçılarının cinayət-prosessual və digər hüquqi normalarda təsbit edilən qadağalara riayət edilməsində, öhdəliklərin yerinə yetirilməsində, hüquqlardan istifadə olunmasında təzahür edən hüquqauyğun davranışı çıxış edir. Bu zaman cinayət prosesinin səlahiyyətli iştirakçıları üçün daha optimal forma sosial-fəal davranış hesab olunur.

4. Neqativ cinayət-prosessual məsuliyyətin əsası kimi belə davranışın tərkibini müəyyənləşdirən hüquqi normaların müddəaları ilə müəyyən olunan cinayət mühakimə icraatı iştirakçılarının hüquqazidd davranışı çıxış edir. Hüquqazidd davranış formaları sırasında aşağıdakılar nəzərdən keçirilməlidir: 1) dar mənada hüquq pozuntusu; 2) istintaq-məhkəmə xətaları (təqsirsiz zərər yetirilməsi ilə əlaqədar olanlar); 3) hüquq və ya səlahiyyətlərdən sui-istifadə.

Cinayət-prosessual hüquq pozuntusu müstəsna olaraq retrospektiv hüquqi (cinayət-prosessual, cinayət, inzibati və s.) məsuliyyətin əsasıdır ki, o da, öz növbəsində, müxtəlif sanksiyalardan, o cümlədən hüquq qaydasının bərpası tədbirlərindən ibarətdir.

Məhkəmə-istintaq xətaları qismində cinayət-prosessual qanunun elə pozuntularını nəzərdən keçirmək lazımdır ki, onlar cinayət mühakimə icraatının müvafiq iştirakçıları tərəfindən qəsd olmadan və ya ehtiyatsızlıq üzündən baş vermişdir (yəni hüquqi normaların istisnasız olaraq təqsir olmadan düzgün tətbiq edilməməsi halları, vicdanlı yanılma).

Hüquq və ya səlahiyyətlərdən sui-istifadə ondan ibarətdir ki, cinayət mühakimə icraatının iştirakçısı ona verilən hüquq və ya səlahiyyətdən özünün hər hansı bir gizli maraqlarına çatmaq üçün istifadə edir ki, o, xüsusi olaraq onları bunun üçün müəyyən edilmiş prosedurlar çərçivəsində hər hansı bir çətinliklər səbəbindən əldə edə bilmir və ya əldə etmək istəmir.

5. AR CPM-də cinayət prosesinin səlahiyyətli subyektlərinin hüquqi statusunu nizama salan müvafiq normalarda (CPM-in 80, 84, 85, 86-cı maddələrində)

onların öz vəzifələrini yerinə yetirməmələri, lazımi qaydada və ya vaxtında yerinə yetirməmələri, qanunla müəyyən edilmiş qadağaların pozulması, eləcə də səlahiyyətlərdən sui-istifadəyə görə məsuliyyətin müxtəlif növlərinə cəlb edilmələrinin mümkünlüyü əks etdirilməlidir. Bu zaman maddi hüququn müvafiq normalarında hüquq pozuntularının tərkibi ifadə edilməli və konkret cəza növləri müəyyənləşdirilməlidir. Bu, adçəkilən subyektlərə kifayət qədər aydın şəkildə təkcə öz səlahiyyət və vəzifələrini deyil, həm də onların hüquqauyğun davranışlarının şərtləndirilməsi üçün az əhəmiyyətli olmayan məsuliyyətini də anlamağa imkan verəcək.

6. AR CM-də təsbit edilən cinayət tərkibləri cinayət prosesinin səlahiyyətli subyektlərinin ictimai təhlükəli davranışlarının heç də bütün növlərini əhatə etmir. Buna görə də AR CM-ə aşağıdakı məzmunda 302-1-ci, 307-1-ci maddələrin daxil edilməsi təklif edilir:

**Maddə 302-1. Prokuror, müstəntiq və ya təhqiqat aparan şəxs tərəfindən bilərəkdən qanunsuz qəti imkan tədbirinin tətbiq edilməsi, bilərəkdən qanunsuz istintaq hərəkətlərinin icraatı və bilərəkdən qanunsuz qərarların çıxarılması**

*prokuror, müstəntiq və ya təhqiqat aparan şəxs tərəfindən bilərəkdən qanunsuz qəti imkan tədbirinin tətbiq edilməsi, bilərəkdən qanunsuz istintaq hərəkətlərinin icraatı və bilərəkdən qanunsuz qərarların çıxarılması, şəxsin hüquq və qanunla qorunan mənafelərinin əhəmiyyətli dərəcədə pozulmasına səbəb olduqda —*

beş yüz manatdan min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Maddə 307-1. Qabaqcadan vəd etmədən ağır və xüsusilə ağır cinayətin hüquq-mühafizə orqanının vəzifəli şəxsi tərəfindən gizlədilməsi.**

*Qabaqcadan vəd etmədən ağır və xüsusi ilə ağır cinayətin hüquq-mühafizə orqanının cinayət haqqında məlumatın qəbulunu və (və ya) onların yoxlanması və həll edilməsini həyata keçirən vəzifəli şəxs tərəfindən gizlədilməsi-*

iki ildən beş ilə qədər azadlıqdan məhrum etmə ilə cəzalandırılır*"*.

7. Cinayət mühakimə icraatının bütün səlahiyyətli iştirakçıları üçün cinayət-prosessual qanunun əhəmiyyətli dərəcədə pozulmalarına görə bu və ya digər məsuliyyət nəzərdə tutulmalıdır. Cinayət əlamətlərinə uyğun gəlməyən qanunazidd əməllərdə təqsirkar olan səlahiyyətli subyektlər intizam məsuliyyətinə cəlb edilməlidirlər. Törədilməsinə görə intizam məsuliyyətinin nəzərdə tutulduğu cinayət-prosessual hüquqpozmalarının xüsusi siyahısının tərtib edilməsi zəruridir (ixtiyari məsuliyyətdən uzaq qaçmaq üçün).

8. AR CPM-in 10.5 maddəsinin aşağıdakı redaksiyada müəyyən edilməsi zəruridir:

*"Hazırki Məcəllənin bu maddəsində göstərilən tələblərin pozulması ilə aparılan prosessual hərəkətlərin və qəbul olunmuş qərarların hüquqi qüvvəsi yoxdur. Bu hərəkətlər qanunsuz kimi tanınır, onların nəticəsində əldə edilmiş sübutlar isə yolverilməzdir və sübutetmədə istifadə edilə bilməzlər. Göstərilən qərarlar qanunsuz hesab edilir və ləğv edilməlidir. Bu barədə qərar hazırki Məcəllə ilə belə bir səlahiyyətin verilmiş olduğu cinayət prosesi iştirakçısı tərəfindən qəbul edilir".*

9. AR CPM-in 203.1 maddəsinin aşağıdakı redaksiyada müəyyən edilməsi zəruridir:

*"Cinayət mühakimə icraatı zamanı hazırki Məcəllə ilə nəzərdə tutulan müddətlər keçdikdən sonra aparılan prosessual hərəkətlər, eləcə də cinayət mühakimə icraatı gedişində qəbul edilmiş qərarlar, əgər müddət bərpa edilməmişsə və ya uzadılmamışdırsa, etibarsız sayılır. Müəyyən edilmiş müddətlərin keçməsindən sonra buraxılmış müddətin bərpasına və ya itirilmiş müddətin uzadılmasına yönəlmiş prosessual hərəkətlərin icraatına və qərarların qəbuluna icazə verilir".*

**Tədqiqatın praktik və nəzəri əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, işdə ölkə elmində ilk dəfə olaraq cinayət-prosessual

məsuliyyətin konsepsiyası təklif edilir, onun elementləri, xüsusiyyətləri açılır və səciyyə edilir, realizə edilmə mexanizmləri təhlil olunur. Bu zaman əsas kimi hüquqi məsuliyyətin ümumelmi anlayışı götürülmüşdür ki, onun da əsasında cinayət-prosessual məsuliyyətin müəllif anlayışı və onun əsasları xülasə edilmişdir.

Cinayət-prosessual məsuliyyətin izah edilən anlayışı və onun strukturunun müxtəlif elementlərinin, realizə edilməsi mexanizmlərinin təhlili əsasında qüvvədə olan qanunvericiliyin dəyişdirilməsi üzrə bir sıra təkliflər irəli sürülmüşdür.

İşdə əsas vurğu nəzəri aspektlərə edilmişdir ki, bu da toxunulan problemlərin geniş spektri və bir tədqiqat çərçivəsində cinayət-prosessual məsuliyyətlə əlaqədar olan bütün nəzəri və praktiki məsələlərin əhatə edilməsinin mümkünsüzlüyü ilə şərtlənmişdir. Nəzəri aspektlərin işıqlandırılması cinayət-prosessual məsuliyyətin mövcudluğunun ümumi konsepsiyasını ifadə etməyə imkan vermişdir ki, onun da əsasında cinayət prosesinin müxtəlif mərhələlərində və müxtəlif subyektlərə münasibətdə həmin növ məsuliyyətin realizə edilməsi xüsusiyyətlərinin sonrakı ətraflı tədqiqi mümkün olmuşdur.

Praktiki əhəmiyyət - səlahiyyətli subyektlər və cinayət mühakimə icraatının digər iştirakçılarına münasibətdə cinayət-prosessual məsuliyyətin praktiki realizə edilməsinin təkmilləşdirilməsi üzrə konkret tövsiyələrin hazırlanması ilə şərtlənir. Elmi işdə pozitiv məsuliyyətin realizəsi, neqativ məsuliyyətin tətbiq edilməsi şərtləri və meyarları göstərilmiş, cinayət-prosessual məsuliyyəti reqlamentləşdirən normaların tətbiq edilməsinin mövcud problemlərinin həlli yolları təklif edilmişdir.

**Tədqiqat nəticələrinin aprobasiyası və tətbiq edilməsi.** Dissertasiyanın əsas nəzəri müddəaları Azərbaycan Respublikası və Rusiya Federasiyası AAK-ları tərəfindən tövsiyə edilən jurnallarda dərc edilmiş on bir elmi məqalədə əks etdirilmiş, eləcə də onlardan ikisi: Bakı şəhərində 6 iyul 2010-cu ildə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlar Baş İdarəsi və Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə, Sosiologiya və Hüquq

İnstutunun təşkilatçılığı ilə keçirilmiş “Hərbi xidmət və cinayətkarlıqla mübarizə” mövzusundakı ümumrespublika elmi-praktiki konfransında; 11-12 iyun 2012-ci ildə Bakı şəhərində Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun təşkilatçılığı ilə keçirilmiş “Azərbaycanda hüquqi dövlət quruculuğu və qanunvericiliyi – 2020: gələcəyə baxış” mövzusundakı Beynəlxalq elmi-praktiki konfransda edilən məruzələrdə şərh edilmişdir.

Tədqiqatın nəticələri hüquq üzrə ali təhsil müəssisələrinin tədris prosesində, eləcə də prokurorluq, təhqiqat və digər hüquq-mühafizə orqanlarının praktiki fəaliyyətində və Milli Aviasiya Akademiyasının “Hüquqşünaslıq” kafedrasında keçirilən seminarlarda istifadə olunur (12.10.2010-cu il tarixli 03 saylı protokol).

**İşin strukturu.** Dissertasiya girişdən, altı paraqrafı birləşdirən üç fəsildən, girişdən, yekun rəydən, məhkəmə-statistika məlumatlarından, ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU.

Dissertasiyasının **girişində** mövzu seçimi əsaslandırılır, onun aktuallığı, yeniliyi və praktiki əhəmiyyəti qeyd edilir, ümumiləşdirilmiş şəkildə əldə edilmiş nəticələr xülasə olunur, müdafiəyə çıxarılan əsas müddəalar göstərilir. Müəllif cinayət-prosessual məsuliyyət institutunu təhlil edərək onun təkmilləşdirilməsi qənaətinə gəlir. Buna görə də dissertant Azərbaycan Respublikasının Cinayət və Cinayət-Prosessual Məcəllələrinə bir sıra əlavə və dəyişiklərin edilməsini təklif edir.

**“Azərbaycan Respublikasının qanunvericiliyində cinayət-prosessual məsuliyyətin mahiyyəti, əhəmiyyəti və növləri” adlanan birinci fəsildə** aşağıda qeyd edilən mühüm məsələlər nəzərdən keçirilir: a) hüquqi məsuliyyətin bir növü kimi cinayət-prosessual məsuliyyətin səciyyəvi cəhətləri və əhəmiyyəti; b) cinayət-prosessual məsuliyyətin mahiyyəti və növləri.

**“Hüquqi məsuliyyətin bir növü kimi cinayət-prosessual məsuliyyətin səciyyəvi cəhətləri və əhəmiyyəti” adlanan birinci paraqrafda** göstərilir ki, cinayət-prosessual məsuliyyət cinayət mühakimə icraatının təyinatına nail

olunmanın əleyhinə fəaliyyət göstərən cinayət prosesinin istənilən iştirakçısının mümkün və həqiqi hüquqazidd müqaviməti, əks təsiri və hüquq pozuntularının (yəni neqativ təzahürlərin) dəf edilməsinə yönəlmiş prosessual təminat tədbirləri növlərindən birinin konstruksiyasıdır. Qeyd etmək yerinə düşər ki, cinayət-prosessual məsuliyyət normaları özlərinin cinayət prosesi hüdudlarından kənara çıxacaq xüsusi məqsədlərinə malik deyildir, yəni onun təyinatının əldə edilməsinə yönlənmişdir. Cinayət-prosessual məsuliyyət özünü bütün digər cinayət-prosessual təzahür və vasitələrin səmərəli fəaliyyət göstərməsinin təmin edilməsinə istiqamətləndirilmiş təminedici, yardımçı vasitə kimi göstərir. Bu aspektdə cinayət-prosessual hüquq sahəsinin hüquqi tənzimetmə predmetinin əsasını təşkil edən cinayət məsuliyyətinin realizə edilməsi təminatının yaradılmasına istiqamətlənmişdir. Bütün hallarda cinayət-prosessual məsuliyyət institutun normaları funksional surətdə cinayət-prosessual hüququn digər institutlarının normaları ilə qarşılıqlı əlaqəlidir və onların tələblərinin yerinə yetirilməməsi və ya lazımi qaydada realizə edilməməsinin mənfi nəticələrinin müəyyən edilməsinə, bununla da onların faktiki olaraq ictimai-faydalı təsirinin təmin edilməsinə istiqamətlənmişdir.

İctimai münasibətlərin və qanunvericiliyin inkişafı hüquqi məsuliyyətin yeni növlərinin yaranmasını doğurur. Hüququn heç bir sahəsi özünün hüquqi məsuliyyət institutu olmadan normal fəaliyyət göstərə bilməz. Hüququn elə bir sahəsini təsəvvür etmək çətindir ki, o, özünün hüquqi tələb və icazələrin təmin edilməsi vasitələrinə malik olmasın. Bu, bərabər dərəcədə hüququn həm maddi, həmdə prosessual sahələrinə aiddir.

Bu paraqrafda həmçinin qeyd edirilir ki, hüquqi məsuliyyətin strukturunda cinayət-prosessual məsuliyyətin yarım növ qismində daxil olduğu prosessual məsuliyyətin növlərini fərqləndirmək lazımdır.

Cinayət-prosessual məsuliyyətin hüquqi məsiliyyətin müstəqil növü kimi formalaşması cinayət-prosessual hüquq sahəsinin özünün formalaşması ilə şərtlənir.

Cinayət-prosessual məsuliyyət onun hüquqi məsuliyyət sistemində nisbi təcridliyini şərtləndirən bir sıra spesifik cəhətlərinin mövcudluğu ilə səciyyə edilir.

Cinayət-prosessual məsuliyyət hüquq institutu kimi bir sıra funksiyaları yerinə yetirir: tənzimləyici, qoruyucu, qabaqlayıcı və tərbiyəvi. Bu da onun cinayət-prosessual hüquq və cinayət-prosessual fəaliyyət üçün əhəmiyyətini qabaqcadan müəyyən edir.

**"Cinayət-prosessual məsuliyyətin mahiyyəti və növləri" adlanan ikinci paraqrafda** müəllif cinayət-prosessual məsuliyyətin mahiyyətinin izah edilməsi üzərində ətraflı şəkildə dayanır, tanınmış prosessualist alimlərlə geniş polemikaya girir və yekunda həmin məsələlər üzrə özünün konkret və arqumentləşdirilmiş təriflərini verir.

Cinayət-prosessual məsuliyyətin mahiyyətinin aydınlaşdırılması üçün həmçinin "cinayət-prosessual məsuliyyət" və "cinayət-prosessual pozuntuya görə məsuliyyət" anlayışlarının nisbətinə diqqət yetirmək zərurəti yaranır.

Cinayət-prosessual məsuliyyət müstəsna olaraq, cinayət-prosessual hüquq normaları ilə tənzimlənir, bununla yanaşı onun əsasları cinayət-prosessual fəaliyyət çərçivəsindən kənarda da təzahür edə bilər (misal üçün, əməliyyat-axtarış fəaliyyətinin nəticələri əsasında formalaşdırılan sübutlar, əgər məlum olarsa ki, onların əldə edilməsində AR Konstitusiyasının tələbləri və "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun müvafiq normaları pozulmuşdur, yol verilməz sübut kimi qiymətləndirilə bilər).

Eyni zamanda, cinayət-prosessual pozuntulara görə məsuliyyət istər cinayət-prosessual sanksiyalarda, istərsə də hüququn digər sahələrinin : cinayət, inzibati, mülki hüquqların sanksiyalarında ifadə oluna bilər. Başqa sözlə desək, cinayət-prosessual qanunla müəyyən edilmiş vəzifə və qadağaların pozulmasına görə həm müvafiq cinayət-prosessual məsuliyyət, həm də cinayət, inzibati, mülki məsuliyyət tətbiq edilə bilər. Cinayət Məcəlləsində eyni zamanda həm cinayət-prosessual hüquq pozuntusu, həm də cinayət kimi səciyyə edilən bir sıra əməllərin törədilməsi qadağan edilmişdir (misal üçün, hakim tərəfindən

biləräkdən ədalətsiz hökmün çıxarılmasına görə cinayət-prosessual məsuliyyət yaranır – hökmün ləğvi və cinayət məsuliyyəti, həmin hakimin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 295-ci maddəsi ilə mühakimə edilməsi).

Daha sonra göstərilən paraqrafda qeyd edilir ki, cinayət-prosessual məsuliyyət pozitiv və neqativ, eləcə də perspektiv və retrospektiv aspektdən nəzərdən keçirilməli, buraya neqativ məsuliyyətin tərkibini təşkil edən, pozitiv məsuliyyətin elementləri kimi bütün sanksiyalar daxil edilməli və cinayət-prosessual hüquq pozuntularına görə məsuliyyətdən ayrılmalıdır.

Cinayət- prosessual məsuliyyətin hüquqi məsuliyyətin, cinayət-prosessual hüququn hüquqi tənzimlənməsi metodlarının elementi kimi cıxış edən və cinayət mühakimə icraatı iştirakçılarının davranışına diferensiasiyalı təsirin, onlar tərəfindən şüurlu şəkildə könüllü-məcburi olaraq riayət edilməsinin təmin olunması (hüquqauyğun davranış), həmin göstərişlərə əməl edilməməsinin qarşısının alınması (hüquqazidd davranış) məqsədi ilə normativ təsbit edilmiş spesifik vasitə və üsullarının (həvəsləndirici, cəzalandırıcı və s.), eləcə də belə riayət etməmə hallarının neqativ nəticələrinin aradan qaldırılması üsullarının (bərpaedici tədbirlər) məcmusunu ifadə edən müstəqil bir növü kimi (prosessual məsuliyyətin yarımnövü) müəyyən edilməsi mümkündür.

**“Cinayət-prosessual məsuliyyətin əsasları” adlanan ikinci fəsildə** aşağıda qeyd edilən mühüm məsələlər nəzərdən keçirilir: a) cinayət-prosessual məsuliyyətin əsasının anlayışı və strukturu; b) cinayət-prosessual məsuliyyətin əsaslarının növləri.

**Bu fəslin birinci paraqrafında** cinayət-prosessual məsuliyyətin əsasının anlayışı və strukturu nəzərdən keçirilir. Cinayət-prosessual məsuliyyətin əsasını cinayət prosesi iştirakçısının hərəkətlərini cinayət-prosessual və hüququn digər sahələrinin həmin hüquqi normaların müddəalarına riayət edilməsindən asılı olaraq hüquqauyğun və ya hüquqazidd kimi tanınan normaları ilə tənzimlənən davranışı kimi müəyyənləşdirmək lazımdır.

Bu zaman qeyd etmək lazımdır ki, cinayət prosesi iştirakçısının fəaliyyətinin cinayət-prosessual hüquq deyil, digər hüquq sahələri ilə tənzimlənməsi haqqında məsələdə ziddiyyət, özünü birüzə verir. Cinayət-prosessual hüquq münasibətlərinin iştirakçısı özünün qeyri-prosessual (inzibati, əməliyyat-axtarış) fəaliyyətinin nəticələrini cinayət mühakimə icraatına bütövlükdə cəlb etməyə cəhd göstərə bilər. Belə prosesə qədər və ya prosesdən kənar fəaliyyət, təbii ki, hüququn digər sahələrinin normaları ilə tənzimlənir. Lakin bu nəticələrin cinayət prosesində tətbiq edilməsinə göstərilən cəhdlər zamanı məhz həmin hüquq sahəsinin normaları "işə düşür" və öz hərəkətləri ilə cinayət-prosessual münasibətlərə daxil olan və bununla da onların iştirakçısına çevrilən şəxs üçün, adətən, hüququn sadalanan sahələri ilə də qarşılıqlı əlaqəli olan müvafiq göstərişlər müəyyən edir. Belə sxem dövlətin bütün ərazisində qanunçuluğu və hüquq qaydasını təmin etməyə və bir fəaliyyət növü çərçivəsindən qanunsuz olaraq əldə edilmiş nəticələrin hüquqtətbiqetmə fəaliyyətinin digər növündə istifadə olunmasının mümkünlüyünə yol verilməməsinə imkan yaradır. Başqa sözlə, şəxsin sübuti əhəmiyyətə malik informasiyanın əldə edilməsində qanunu pozması ona həmin informasiyadan özünün vəzifə mövqeyindən irəli gələrək iştirakçısı ola biləcəyi hüquq-mühafizə fəaliyyəti növlərindən heç birində istifadə etməyə (leqallaşdırmağa) imkan verməyəcəkdir.

**Ikinci paraqrafda** cinayət-prosessual hüququn mahiyyəti, anlayışı və "prosessual məcburiyyət tədbirləri" kimi tanınan mühüm institutlarından birinin növləri nəzərdən keçirilir. Həmin instituta aid olan məsələlər AR CPM-nin IV bölməsində nəzərdə tutulan prosessual-hüquqi normalarla tənzimlənir (16, 17 və 18-ci fəsillər).

Bu paraqrafda bütövlükdə cinayət-prosessual məsuliyyətin təbiəti və əsaslarının növləri nəzərdən keçirilir, motivlərindən asılı olaraq cinayət mühakimə icraatı iştirakçılarının hüquqauyğun davranışının təsnifatı verilir.

**"Azərbaycan Respublikasının cinayət mühaki icraatında cinayət-prosessual məsuliyyətin realizə edilməsi problemləri"** kimi formulə edilmiş **üçüncü fəsildə –** aşağıda göstərilən mühüm məsələlər nəzərdən keçirilir: a) cinayət

mühakimə icraatının səlahiyyətli subyektlərinə münasibətdə cinayət-prosessual məsuliyyətin realizə edilməsi problemləri; b) cinayət mühakimə icraatının digər iştirakçılarına münasibətdə cinayət-prosessual məsuliyyətin realizə edilməsi problemləri.

Adı çəkilən fəslin **birinci paraqrafında** söhbət cinayət mühakimə icraatının səlahiyyətli subyektlərinin daxil olduğu birinci qrupa münasibətdə cinayət-prosessual məsuliyyətin problemlərindən gedir. Qüvvədə olan cinayət-prosessual qanunveriliyə əsasən onların sırasına cinayət prosesini həyata keçirən orqanlar – icraatlarında cinayət işi və ya cinayət təqibi ilə əlaqədar olan digər materialların olduğu təhqiqat, istintaq orqanları, prokurorluq və ya məkəmə orqanları (AR CPM-nin 7.0.5. maddəsi), eləcə də müstəntiqlərə və təhqiqatçılara idarədaxili nəzarəti həyata keçirən şəxslər – müvafiq olaraq, istintaq orqanının rəisi və təhqiqat orqanının rəhbəri aiddir.

**İkinci paraqrafda** vurğulanır ki, cinayət mühakimə icraatının digər iştirakçılarının (qeyri-vəzifəlilərin) məsuliyyəti səlahiyyətli subyektlərinin məsuliyyətindən xeyli fərqlənir.

Bu paraqrafda həmçinin göstərilən kateqoriyadan olan şəxslərin törətdikləri cinayətlərin tərkibləri və onlara tətbiq edilən tədbirlər nəzərdən keçirilir, cinayət və əmlak məsuliyyətləri arasında ayrılma aparılır, cinayət mühakimə icraatının digər iştirakçıları qrupuna daxil olan cinayət prosesinin konkret iştirakçılarının cinayət-prosessual məsuliyyətinə aid olan məsələlər tədqiq edilir.

AR CPM-in səlahiyyəti olmayan (yəni digər) subyektlərinin prosessual statuslarının xüsusiyyətlərinin əks oluduğu müvafiq maddələrində, adətən, onların hüquq və vəzifələri də müəyyən edilir, lakin onların məsuliyyəti barədə danışılmır. Belə ki, həmin normalarda zərər çəkmiş (AR CPM-in 87-ci maddəsi), xüsusi ittihamçı (AR CPM-in 88-ci maddəsi), mülki iddiaçı (AR CPM-in 89-cu maddəsi), şübhəli şəxs (AR CPM-in 90-cı maddəsi), təqsirləndirilən şəxs (AR CPM-in 91-ci maddəsində) üçün, ümumiyyətlə, məsuliyyət müəyyən edilməmişdir. Ümumi şəkildə məsuliyyət (pozuntuların və onlara müvafiq məsuliyyət növlərini konkretləşdirilmədən məsuliyyətin başlanmasının mümkünlüyünə göstəriş) hal

şahidi (AR CPM-in 94-cü maddəsi), şahid (AR CPM-in 95-ci maddəsi), mütəxəssis (AR CPM-in 96-cı maddəsi), ekspert (AR CPM-in 97-ci maddəsi), məhkəmə iclasının katibi (AR CPM-in 98-ci maddəsi) üçün müəyyən edilmişdir. Məhkəmə iclasının katibi prosesin digər iştirakçılar qrupuna aid olaraq o hakimiyyət səlahiyyətlərinə malik deyil, lakin eyni zamanda hüquq-mühafizə orqanının nümayəndəsi, məhkəmə işçisidir. Ona münasibətdə müəyyən edilən məsuliyyətin xüsusi spesifikliyi yoxdur, buna görə də onunla bağlı məsələlər bizim tədqiqatda geniş təhlil edilməmişdir.

**Dissertasiyanın nəticə hissəsində** ümumiləşdirmələr, nəticələr, cinayət mühakimə icraatının səlahiyyətli subyektləri və digər iştirakçılarına münasibətdə cinayət-prosessual məsuliyyətin realizə edilməsi təcrübəsinin təkmilləşdirilməsi üzrə təkliflər və tövsiyələr əks etdirilmiş, pozitiv məsuliyyətin realizə edilməsinin şərtləri və meyarları göstərilmiş, mövcud olan problemlərin həll edilmə yolları, cinayət-prosessual məsuliyyəti reqlamentləşdirən normların tətbiq edilməsi təklif olunmuşdur. .

## Tədqiqat mövzusu üzrə nəşrlər:


1. Основания уголовно-процессуальной ответственности (проблемные аспекты) // Издателький дом «БУКВОВЕД», «ЗАКОНЫ РОССИИ» ежемесячный правовой журнал №06, июнь 2009,Moskva – 2009, s.119-122;
2. Сущность и виды уголовно-процессуальной ответственности //«ГАНУН» №10 (186), Бакы 2009, s.100-106;
3. Проблемы реализации уголовно-процессуальной ответственности в отношении властных субъектов уголовного судопроизводства //«ГАНУН» №11 (187), Бакы 2009, s. 123-129;
4. Характерные черты и значение уголовно-процессуальной ответственности как разновидности юридической ответственности //«ГАНУН» №12 (188), Бакы 2009, s. 131-137;
5. Виды оснований уголовно-процессуальной ответственности // Вятяндаш ъямиййятинин Инкишафы» Иътимаи Бирлийи, АМЕА Фялсяфя, Сосиолоэийа вя Щцгуг Институту, Бакы Щцгуг Мяркязи «АЗЯРБАЙЪАН РЕСПУБЛИКАСЫНДА ДЮВЛЯТ ВЯ ЩЦГУГ ГУРУЪУЛУЬУНУН АКТУАЛ ПРОБЛЕМЛЯРИ» Елми мягаляляр мяъмуяси 04/2009, Бакы - 2009, s.226-231;
6. Ъинайят просесинин диэяр иштиракчыларынын щцгуги мясулиййяти// Азярбайъан Республикасынын Ядлиййя Назирлийи «Ядлиййя Няшриййат Еви» ММЪ «ГАНУНЧУЛУГ» Щцгуг журналы №2, 2010, Бакы - 2010, s.62-66;
7. Понятие основания уголовно-процессуальной ответственности // Азярбаъан Республикасы ДИН Дахили Гошунларын Баш Идаряси вя АМЕА Фялсяфя, Сосиолоэийа вя Щцгуг Институтунун тяшкилатчылыьы иля keчirilmiş

«ЩЯРБИ ХИДМЯТ ВЯ ЪИНАЙЯТКАРЛЫГЛА МЦБАРИЗЯ ПРОБЛЕМЛЯРИ» мювзусунда цмумреспублика елми-практики конфрансын материаллары, Бакы - 06 ийул 2010-ъу ил, s.207-218;

8. Структура основания уголовно-процессуальной ответственности // Издательский дом «Панорама», Издательство «Наука и культура», Журнал «Юрист ВУЗа», №5/2011, Москва -2011, с .65-70;

9. Понятие уголовно-процессуальной ответственности // АМЕА Фялсяфя, Сосиолоэийа вя Щцгуг Институтунун «АЗЯРБАЙЪАНДА ЩЦГУГИ ДЮВЛЯТ ГУРУЪУЛУЬУ ВЯ ГАНУЧУЛУГ -2020: ЭЯЛЯЪЯЙЯ БАХЫШ» мювзусунда бейнялхалг елми-практики конфрансын материаллары, Бакы – 11-12 ийун 2012-ъи ил Бакы – «Тякнур» - 2012, с. 211-215;

10. Понятие и сущность позитивной уголовно-процессуальной ответственности // Азярбайъан Республикасы Ядлиййя Назирлийи Мящкямя Експертизасы Мяркязи Мящкямя Експертизасы, Криминалистика вя Криминолоэийанын актуал мясяляляри, (elmи ясярляр мяъмуяси № 60), Вакы- 2014, с.82-88;

11. Проблемы реализации уголовно-процессуальной ответственности // Азярбайъан Республикасы Одлар Йурду Университети, «ОДЛАР ЙУРДУ УНИВЕРСИТЕТИНИН ЕЛМИ ВЯ ПЕДАГОЖИ ХЯБЯРЛЯРИ. ЩУМАНИТАР ЕЛМЛЯР СЕРИЙАСЫ» №39, Бакы – 2014, с. 160-166

**Баладжаев Вугар Самед оглы**

**Уголовно-процессуальная ответственность**

**Резюме**

Представленная на защиту диссертация является монографической работой, посвященной исследованию проблемы уголовно-процессуальной ответственности.

Диссертация состоит из введения, трех глав, объединяющих шесть параграфов, заключения, списка использованной литературы и приложения.

Во введении даются сведения об общей характеристики, актуальности, цели и задачи, объекта и предмета, методической и теоретической базы исследования, основных положений, выносимых на защиту, теоретической и практической значимости, апробации выводов исследований и структуры работы.

Первая глава диссертации «Сущность, значение и виды уголовно-процессуальной ответственности в законодательстве Азербайджанской Республики» посвящена характерным чертам и значению уголовно-процессуальной ответственности как разновидности юридической ответственности; сущности и видов уголовно-процессуальной ответственности.

В главе второй «Основания уголовно-процессуальной ответственности» уделяется внимание таким важным вопросам как: понятие и структура основания уголовно-процессуальной ответственности; виды оснований уголовно-процессуальной ответственности.

Третья глава диссертационной работы «Проблемы реализации уголовно-процессуальной ответственности в судопроизводстве Азербайджанской Республики» посвящена проблеме реализации уголовно-процессуальной ответственности в отношении властных субъектов уголовного судопроизводства; проблеме реализации уголовно-процессуальной ответственности в отношении иных участников уголовного судопроизводства.

В заключении диссертации представлены полученные результаты в ходе исследования в обобщенном и систематизированном виде.

**Balajayev Vugar Samad oglu**

**“Criminal-Procedural Responsibility”**

**Summary**

The dissertation thesis is a monographic research dedicated to the problems of responsibility in criminal procedure.

The dissertation thesis is consisted of an introduction, three chapters, conclusion, literature list and attachments.

Information about general characteristics, actuality of thesis, research purpose and matters, subject and features, methodological and theoretical ground, normative and empiric base, provisions put forward for the defense, theoretical and practical importance, results absorption and structure of dissertation are comprehensively issued in the introductory part.

The first chapter of thesis is called "Criminal-procedural responsibility essence, importance and types in the applicable legislation of the Republic of Azerbaijan". This chapter is focused on the following issues: characteristic signs and importance of criminal-procedural responsibility as a type of legal responsibility; essence and types of criminal-procedural responsibility.

The second chapter of the dissertation is called "Principles of criminal-procedural responsibility". The following matters are researched in this chapter: types and structure of criminal-procedural responsibility; principal types of criminal-procedural responsibility

The third chapter of the dissertation thesis is called “Realization of problems of criminal procedural responsibility in the criminal judgment execution of the Republic of Azerbaijan”. The following matters are the limelight of this chapter: realization of criminal procedural responsibility in the name of authorized governmental officials who are a member of criminal judgment execution; realization of criminal procedural responsibility in the name of other members of criminal judgment execution.

Results achieved within the process of research are generally and systematically issued in the conclusion part of thesis.